**Məlumat kitabçası II MPF**

**Mündəricat**

**1.Giriş****

**- Əziz tələbələr II Müalicə-profilaktika fakültəsinə xoş gəlmisiniz.**

Sizlərə, ilk öncə Azərbaycan Tibb Universitetininin II Müalicə-profilaktika fakültəsini seçdiyiniz üçün təşəkkür edir, eyni zamanda tələbə adı qazanmağınız münasibətilə ilə universitet rəhbərliyi adından, başda hörmətli rektorumuz professor Gəray Gəraybəyli olmaqla səmimi qəlbdən təbrik edirik. Bu şərəfli və nəcib peşəyə yiyələnmək yolunda hər birinizə uğurlar arzu edirik.

2016-ci ildən II Müalicə-profilaktika fakültəsini Dos. İsrail Məhərrəmbəyli rəhbərlik edir. Hazırda II MPF-də 373 nəfər professor-müəllim heyəti çalışır.

Fakültəyə dosen Dos. İsrail Məhərrəmbəyli Şəmşəd oğlu rəhbərlik edir. Fakültə dekanlığında 3 nəfər dekan müavini, 3 nəfər akademik məsləhətçi və operator çalışır.

2022-ci ildə Azərbaycan Tibb Universiteti, ölkədə fəaliyyət göstərən ali təhsil müəssisələri arasında ilk və yeganə universitet olaraq, üç ixtisas üzrə Beynəlxalq Akkreditasiyadan uğurla keçmişdir. Onlardan biri də Müalicə işi ixtisasıdır.

Normativ təhsil müddəti Tibb Fakültəsi üçün 6 ildir.




Normativ təhsil müddətində (6 ildə) tələbə 360 kreditlik dərsi mənimsəməlidir.
Baloniya sisteminə əsasən bilik səviyyəsi 100 ballıq sistemlə qiymətləndirilir.

- **MİSSİYAMIZ** - Cəmiyyətin həyat keyfiyyətini milli və regional tələblərə uyğun yüksəltmək və elm dünyasına töhfə vermək məqsədilə ən yüksək səviyyədə tibbi təhsil verməklə hadisələrə tənqidi yanaşma bacarığı olan, xəstəlikləri differensasiya və müalicə edə bilən, profilaktik tibbi və cəmiyyətin sağlamlığını ön planda düşünən, kommunikasiya qurmağı bacaran, etik prinsipləri mənimsəmiş, mədəni cəhətdən püxtələşmiş, tədqiqatçı və məhsuldar həkimlər yetişdirməkdir.

- **BAXIŞIMIZ -** Ölkə səviyyəsində tibb təhsili, tədqiqat, tibb xidməti göstərilməsində liderliyi qorumaq, beynəlxalq arenada qabaqcıl tibb fakültələri arasında yer tutmaq, həm milli, həm də beynəlxalq elm və texnologiya dünyası ilə təşkilati əlaqələri inkişaf etdirən, korporativ mədəniyyətə və güclü şəxsiyyətə malik, dünyanın keyfiyyətli universitetlərinə bərabər təhsil və tədqiqat müəsisəsi olmaqdır.

- **Məqsədimiz-** Azərbaycan Tibb Universitetində tibb təhsili, tədqiqat və tibbi xidmətlərdə mükəmməlliyə doğru inkişaf etmək məqsədimiz sabit və dəyişməzdir.

**2.**Qəbul tələbləri****

**Azərbaycan vətəndaşı olan tələbələrin qəbul qaydaları**

Ali təhsil müəssisələrinə qəbul olmaq hüququna tam orta, yüksək texniki peşə, orta ixtisas və ya ali təhsili başa vurmaq haqqında müvafiq dövlət nümunəli sənəd almış şəxslər malikdirlər. Bakalavriat *(əsas (baza ali) tibb təhsili)* səviyyəsində təhsil dövlət sifarişi əsasında (dövlət büdcəsinin vəsaiti hesabına) və ya ödənişli əsaslarla həyata keçirilir. Dövlət ali təhsilin hər bir səviyyəsində təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir. Ali təhsil müəssisələrinə tələbə qəbulu abituriyentlərin müvafiq tədris ilində biliyin qiymətləndirilməsi üzrə *mərkəzləşdirilmiş qaydada iki mərhələdə* keçirilən imtahanda (qəbul imtahanında) əldə etdikləri nəticələrə əsasən Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilir. Ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar, həmin ixtisaslar üzrə ali təhsilin dövlət standartları – bakalavr *(əsas (baza ali) tibb təhsilinin)* hazırlığının məzmununa və səviyyəsinə qoyulan məcburi minimum tələblər, bu ixtisaslara yiyələnmək üçün tələb olunan bilik, bacarıq və vərdişlər nəzərə alınmaqla beş qrupa bölünür.

1. **Ərizələrin qəbul edilməsi (***Azərbaycan Respublikasında tam orta təhsil səviyyəsini cari ildə bitirən abituriyentlər ali təhsil müəssisələrinə tələbə qəbulu üzrə müsabiqədə iştirak etmək üçün Mərkəzin rəsmi internet saytında "Abituriyentin elektron ərizəsi"ni doldurur və özləri təsdiq edirlər. Azərbaycan Respublikasının vətəndaşları şəxsiyyət vəsiqələrini, əcnəbilər pasportlarını və (və ya) icazə vəsiqələrini, vətəndaşlığı olmayan şəxslər yaşadıqları ölkənin hüdudlarından kənara getmək üçün onlara verilən sənədləri və ya icazə vəsiqələrini, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər şəxsiyyət vəsiqələrini, qaçqın statusu almış şəxslər və onların ailə üzvləri qaçqın vəsiqələrini, onlara verilmiş yol sənədini, beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda digər sənədləri və ya icazə vəsiqələrini;)*
2. **Qəbul imtahanı (***Qəbul imtahanının birinci mərhələsində abituriyentlərin toplaya biləcəyi maksimal bal hər fənn üzrə 100 bal olmaqla, cəmi 300 baldır. İmtahanın davametmə müddəti 3 saatdır.) Qəbul imtahanının birinci mərhələsində iştirak etməyən abituriyent ikinci mərhələyə, ikinci mərhələdə iştirak etməyən abituriyent isə ixtisas seçiminə buraxılmır. İmtahan suallarının məzmunu Mərkəz tərəfindən hazırlanmış və Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə razılaşdırılmaqla təsdiq edilmiş imtahan fənləri üzrə qəbul proqramlarına uyğun müəyyən edilir. İmtahanların keçiriləcəyi günlər və imtahanların aparılması texnologiyası Mərkəz tərəfindən müəyyənləşdirilir.*
3. **İxtisas seçimi** İxtisas seçiminə imtahan nəticələri Mərkəz tərəfindən Azərbaycan Respublikasının *Elm və Təhsil* Nazirliyi ilə razılaşdırılmaqla müəyyən edilən müsabiqə şərtlərinə uyğun olan abituriyentlər buraxılırlar. Abituriyentlər ali təhsil müəssisələrinin imtahan verdikləri ixtisas qruplarına aid ixtisaslarını seçir, onları istədikləri ardıcıllıqla elektron ixtisas seçimi ərizə formasına daxil edir və təsdiqləyirlər.
4. **Müsabiqənin keçirilməsi (**Ali təhsil müəssisələrinin I-IV ixtisas qrupuna daxil olan ixtisasları üzrə müsabiqə abituriyentin qəbul imtahanında *(iki mərhələnin nəticəsində)* topladığı ümumi bal əsasında aparılır. Abituriyent eyni tədris ilində

*eyni qrup üzrə* keçirilən bir neçə qəbul imtahanında iştirak etdiyi halda, müsabiqədə hansı imtahanın nəticəsi ilə iştirak edəcəyini özü müəyyən edir.)

5. **Yekun müddəalar (**Təhsilalma formasından asılı olmayaraq, hər hansı bir ixtisasa yerləşdirilmiş abituriyent tələb olunan sənədləri 10 gün müddətində qəbul olduğu təhsil müəssisəsinə təqdim etməklə qeydiyyatdan keçməlidir. Abituriyentin bu müddətdə təhsil müəssisəsində qeydiyyatdan keçməməsi onun yerləşdirildiyi ixtisas üzrə təhsil almaqdan imtina etməsi kimi qiymətləndirilir. Bu abituriyentlər boş qalan yerlər üzrə keçirilən müsabiqəyə buraxılmırlar.)

**3.** Proqramların icmalı****

Fakültədə onun profilinə uyğun əsas (baza ali) tibb təhsil səviyyəsi üzrə əyani formada və doktorantura təhsil səviyəsində əyani və qiyabi formada tədris həyata keçirilir. Tədris prosesi Dövlət təhsil standartlara əsasən hazırlanmış tədris planlarına müvafiq həyata keçirilir. Fakültə əsas (baza ali) tibb təhsili proqramları üzrə aşağıdakı ixtisasda tədrisi həyata keçirilir. 070101 - Müalicə işi; 050904 – Tibb.

**Ali təhsil pilləsinin dövlət standartı** -Tibb təhsilinin əsas təhsil ixtisası üzrə təhsil proqramı (2014, İxtisasın (proqramın şifri və adı: 070101- Müalicə işi )

Tibb təhsilinin 070101 – Müalicə işi ixtisası üzrə Təhsil proqramı (bundan sonra ixtisas üzrə Təhsil proqramı) Azərbaycan Respublikasının "Təhsil haqqında" Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"na və "Ali təhsil pilləsində tibb təhsilinin əsas təhsili üzrə ixtisasların təsnifatı"na uyğun hazırlanmışdır. İxtisas üzrə Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından olmayaraq, Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas ürzə tibb təhsili hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

070101- Müalicə işi ixtisasının xarakteristikası

| İxtisasın şifri və adı | Verilən elmi ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti* | kreditlərin sayı |
|---|---|---|---|
| 070101-Müalicə işi | Həkim | 6 il | 360 |

**Ali təhsil pilləsinin dövlət standartı -Tibb təhsilinin əsas təhsil ixtisası üzrə təhsil proqramı (2020, İxtisasın (proqramın şifri və adı: 050904- Tibb)**

Əsas(baza) ali tibb təhsilinin 050904 – Tibb ixtisası üzrə Təhsil Proqramı (bundan sonra ixtisas üzrə Təhsil Proqramı) "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq qərarlarına, eləcədə "Ali təhsilin bakalavriat (əsas(baza) ali tibb təhsili ) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatına uyğun hazırlanmışdır.

Təhsil proqramının məqsədləri aşağıdakılardır:

İxtisas üzrə məzunun kompetensiyalarını, ixtisasın çərçivəsini, fənlər üzrə təlim və öyrənmə metodlarını, qiymətləndirmə üsullarını, təlim nəticələrini, kadr hazırlığı aparmaq üçün infrastruktura və kadr potensialına olan tələbləri, tələbənin təcrübə keçmə, işə düzəlmə və təhsilini artırma imkanlarını müəyyənləşdirir.

Tələbələri və işəgötürənləri məzunların əldə etdikləri bilik və bacarıqlar, eləcə də təlim nəticələri barədə məlumatlandırmaq.

Təhsil proqramı tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə əsas (baza) ali tibb hazırlığını həyata keçirən bütün ali təhsil müəssisələri üçün məcburidir.

050904 Tibb ixtisası üzrə Təhsil Proqramı 360 (6 il) AKTS kreditindən ibarətdir.

**- Əsas (Baza) Fənlər**

**Məcburi preklinik fənlər**

1. Azərbaycan tarixi
2. Azərbaycan dilində işgüzar və akademik kommunikasiya
3. Xarici dil
4. İnsan anatomiyası və tibbi terminologiya
5. Sitologiya, embriologiya və histologiya
6. Tibbi biologiya və genetika
7. Normal fiziologiya
8. Farmakologiya
9. Mülkü müdafiə
10. İctimai sağlamlıq
11. Ailə təbabəti
12. Patoloji fiziologiya
13. Biofizika
14. Biostatistika və epidemiologiya
15. Parazitologiya
16. Klinik bacarıqlar

**- Klinik Fənlər**

**Məcburi klinik fənlər**

1. Tibbi biokimya
2. Tibbi mikrobiologiya və immunologiya
3. Patologiya
4. Daxili xəstəliklər (nefrologiya, hematologiya, endokrinologiya, revmatologiya)
5. Ümumi cərrahlıq
6. Qastroenterologiya
7. Uşaq sağlamlığı və xəstəlikləri
8. Mamalıq-ginekologiya
9. Anesteziologiya və reanimatologiya
10. Radiologiya və nüvə təbabəti
11. Kardiologiya
12. Ağciyər xəstəlikləri
13. Dəri-zöhrəvi xəstəliklər
14. Nevrologiya
15. Psixiatriya
16. Uşaq cərrahlığı
17. Urologiya
18. Travmatologiya və ortopediya
19. Oftalmologiya
20. Yoluxucu xəstəliklər

21. Neyrocərrahlıq
22. Qulaq, burun, boğaz xəstəlikləri
23. Məhkəmə təbabəti
24. Fizioterapiya və tibbi reabilitasiya
25. Təcili yardım
26. Onkologiya
27. Şüa terapiyası
28. Klinik allerqologiya və immunologiya
29. Ürək damar cərrahlığı
30. Torakal cərrahlıq
31. Plastik cərrahlıq
32. İlkin yardım

**- Seçmə Fənn Kataloqu**

1. Fəlsəfə
2. Hüququn əsasları
3. Etika
4. Multikulturalizmə giriş
5. İnformasiya texnologiyaları,
6. informasiyanın idarəedilməsi
7. Biofizikada əsas eletrofizioloji üsullar
8. Qidalanmanın əsasları
9. Dinamik anatomiya
10. Təkamül genetikası
11. Uşaqlarda genetik xəstəliklər
12. Klinik biokimya
13. Patoloji laboratoriya
14. Uşaqlarda təcili yardım
15. Uşaqlarda onkoloji xəstəliklər
16. Klinik mikrobiologiya
17. Yoluxucu xəstəliklər
18. Uşaq yoluxucu xəstəlikləri
19. Genetik xəstəliklər
20. Neonatologiya
21. Preventiv onkologiya
22. Tamamlayıcı tibb
23. Rasional farmakoterapiya
24. Təcili yardım
25. Revmatologiya
26. Hematologiya
27. Uşaq reanimatologiyası
28. Endokrinologiya
29. Hepatobiliar cərrahiyyə
30. Onkohematologiya
31. Dietologiya
32. Radiasyon onkologiya
33. Ürək damar cərrahiyyəsi
34. Torakal cərrahiyyə
35. Perinatologiya
36. Koloproktologiya

37. Mədəbağırsaq sisteminin cərrahi xəstəlikləri
38. Qida borusu, mədə və 12 barmaq bağırsağın cərrahi xəstəlikləri
39. Periferik damarların cərrahi xəstəlikləri
40. Endokrin və süd vəzilərinin cərrahi xəstəlikləri
41. Transplantologiya

**4.**Klinik təcrübə***

**-Tərəfdaşlarımız**

**1.** Bakı Sağlamlıq Mərkəzi
2. Elmi Tədqiqat Pediatriya İnstitutu
3. 3 saylı Uşaq Dəri-Zöhrəvi Dispanseri
4. 5 saylı Kliniki Xəstəxana
5. Nərimanov Tibb Mərkəzi Uşaq klinik xəstəxanası
6. Məlikov adına 6 saylı Şəhər xəstəxanası
7. M.Ə.Əfəndiyev adına 2 saylı Şəhər Klinik Xəstəxanası
8. Uşaq Nevroloji Xəstəxana
9. 2 saylı Psixiatrik Kliniki Xəstəxana
10. Mirqasımov adına Respublika Kliniki Xəstəxana
11. Mərkəzi Klinik Xəstəxana
12. Respublika Dəri-Zöhrəvi Mərkəz
13. Milli Təhlükəsizlik Xidməti hospital
14. Modern hospital

**-Tibbi stajlar**

Təcrübə tələbənin nəzəri biliklərinin praktikada tətbiqi, eləcə də peşə bacarıqlarının gücləndirilməsi baxımından önəmlidir.

**Təcrübə**

1. Terapiya bloku (revmatologiya-2, allerqologiya və immunologiya-2, hematologiya-1, endokrinologiya-2, nefrologiya-2, qastroenterologiya-2, onkologiya-2, kardiologiya-2, ağciyər xəstəlikləri-2, yoluxucu xəstəliklər-1)
2. Cərrahlıq bloku (ümumi cərrahlıq-3, ürək-damar cərrahlığı-1)
3. Təcili yardım
4. Ailə təbabəti
5. Uşaq sağlamlığı və xəstəlikləri
6. Anesteziologiya və reanimatologiya
7. Mamalıq-ginekologiya
8. Psixiatriya

**-Tədqiqat İmkanları**

Fakültədə elmi-tədqiqat işi kafedraların bazaları, tədris, elmi-tədris və tədqiqat mərkəzləri, laboratoriyalar və fakültənin digər struktur bölmələri nəzdində təşkil edilir.

Fakültədə elmi fəaliyyət həmçinin elmi-tədqiqat, dövlət, beynəlxalq layihə və proqramlarda, qrant müsabiqələrində iştirak etməklə də həyata keçirilir.

1. **Professor-Müəllim və Fakültə heyəti**

Fakültə onun tərkibində olan bütün kafedraları, tədris laboratoriyalarını, fənn kabinetlərini, tədris bazalarını və s. özündə birləşdirir.

Fakültənin təşkilati strukturu universitetin Elmi Şurasında qəbul edilir, rektorun əmri ilə təsdiq edilir və zərurət yarandıqda yenidən baxılır, dəyişiklik, əlavə, yaxud yeni redaksiyada qəbul edilərək "Fakültə haqqında əsasnamə"yə 1 №-li Əlavə kimi əlavə olunur. Fakültənin tərkibinə Fakültə Elmi Şurası, dekanlıq, kafedralar daxildir.Fakültənin əsas struktur bölməsi bütün tədris, metodik, tərbiyə və elmi işini özündə birləşdirən kafedradır. Fakültənin tərkibində17 kafedra fəaliyyət göstərir:

1. II daxili xəstəliklər kafedrası

2. III daxili xəstəliklər kafedrası

3. II cərrahi xəstəliklər kafedrası

4. Ümumi cərrahlıq kafedrası

5. II mamalıq və ginekologiyakafedrası

6. Travmatologiya və ortopediyakafedrası

7.Urologiya kafedrası

8. II uşaq xəstəlikləri kafedrası

9. Ailə təbabəti kafedrası

10. Şüa diaqnostikası və terapiyası kafedrası

11. Patoloji anatomiya kafedrası

12. Patoloji fiziologiya kafedrası

13.Psixiatriya kafedrası

14. Normal fiziologiya kafedrası

15. Tibbi fizika və informatikakafedrası

16.Təcili Tibb kafedrası

17.Tibb və Sağlamlıq elmləri təhsili kafedrası

Kafedralar, laboratoriyalar və digər struktur bölmələr onların əsasnamələrinə müvafiq idarə olunur.

Dekanlıq fakültənin struktur bölməsidir. Dekanlığın tərkibi və ştat sayı dekanın təqdimatına əsasən müvafiq struktur bölmələri ilə razılaşdırılaraq rektor tərəfindən təsdiq edilmiş ştat cədvəli ilə müəyyən edilir.

Dekan müavinləri

1. I-II kuslar üzrə dekan müavini - S.H.Məhərrəmova (Farmakologiya kafedrasının dosenti); 2. II-III kurslar üzrə dekan müavini –A.A.Bəydəmirova (Kliniki farmakologiya kafedrasının dosenti 3.V-VI kurslar üzrə dekan müavini – Z.M.Məmmədov (Məhkəmə təbabəti kafedrasının dosenti); ; 4. I-II kurslar üzrə akademik məsləhətçi – Ş.E.Əliyeva (Patoloji anatomiya kafedrasının assistenti); 5. III-IV kurslar üzrə akademik məsləhətçi – L.Q.Bayramova (Nevrologiya kafedrasının baş laborantı);6. V-VI kurslar üzrə akademik məsləhətçi – A.C.Orucova (Yoluxucu xəstəliklər kafedrasının baş laboranti);

Fakültənin nəzdində olan kafedralarda ümumilikdə 469 nəfər əməkdaş fəaliyyət göstərir. Onlardan 3 nəfər professor, AMEA-nın müxbir üzvü (Südeyf İmamverdiyev, Arif Məmmədov, Yaqub Məmmədov, 45 nəfər elmlər doktoru, professor;5 nəfər tibb elmləri doktoru, 104 nəfər t.e.ü.f.d., dosent, 77 nəfər t.e.ü.f.d., assistent, 97 nəfər assistent, 11 nəfər baş müəllim, (11 nəfər t.e.ü.f.d., baş laborant, 105 nəfər baş laborant, 52 nəfər texniki işçilərdir). Bundan əlavə, fakültədə 19 doktorant, 23 dissertant ali təhsildən sonrakı ixtisas təhsili alır.

-**PMH üzvlərinin profilləri -** II Müalicə-profilaktikası fakültəsinin nəzdində olan kafedralar və kafedra əməkdaşları haqqında ətraflı məlumatı https://amu.edu.az/cafedras bu link vasitəsilə əldə edə bilərsiniz.

**-Akademik Dəstək Xidmətləri**

Tələbələrə Dəstək Xidmətləri üzrə fakültə tələbələrinə məsləhət, akademik rəhbərlik, mentorluq proqramları, şəxsi və peşəkar inkişaf üçün resurslar daxil olmaqla bir sıra dəstək xidmətləri təqdim edir.

Mentorluq fəaliyyətini həyata keçirmək üçün fakültə üzvləri tələbələrə rəhbərlik və akademik dəstək göstərir, onların şəxsi və peşəkar inkişafını dəstəkləmək üçün təşviq edir.

Dekanlıq aşağıdakı funksiyaları həyata keçirir:

- fakültədə tədris, tədris-metodoloji və tərbiyə işlərinin təşkili;
- fakültənin ixtisasları və istiqamətləri üzrə ixtisas təhsil proqramlarının yerinə yetirilməsinin təşkili ;
- tələbə kontingentinin və onların müvəffəqiyyət göstəricilərinin qeydiyyatının aparılması ;
- tədris, tədris-metodik, və elmi-metodik, təşkilati-metodik fəaliyyətinin planlaşdırılması və hesabatlığının təşkili:
- fakültənin əməkdaşlarının peşəkarlıq və mənəvi-etik səviyyələrinin yüksəldilməsi üzrə;
- fakültənin sərəncamında olan tədris, xidməti və digər otaqların, həmçinin maddi nemətlərin və başqa əmlakın saxlama vəziyyətinə nəzarət üzrə;
- məktəblilərlə peşə yönlü işinin təşkili və fakültənin məzunları ilə əlaqələrin qurulması üzrə;
- universitetin digər struktur bölmələrinin iş planları ilə fakültənin işinin koordinasiyası;
- fakültənin fəaliyyətinin kargüzarlıq və sənədləşməsini təmin edilməsi üzrə;

- fakültənin əməkdaşları və tələbələrin həyat təhlükəsizliyini təmin edən tədbirlərin görülməsi üzrə.

**Fakültənin dekanı aşağıdakı funksiyaları yerinə yetirir:**

- fakültəyə rəhbərlik edir;
- fakültədə tədris prosesinə, tərbiyə işinə və elmi-tədqiqatların yerinə yetirməsinə bilavasitə rəhbərlik edir;
- təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçməsini təmin edir;
- tələbələrin imtahan və yoxlamalarının keçirilməsinı nəzarəti təşkil edir, akademik borcları ləğv etmək üçün onlara göndəriş verir və bütün imtahan prosesinin normal, mövcud tələblərə uyğun keçirilməsinə birbaşa cavabdehlik daşıyır;
- tələbələri semestrdən-semestrə və kursda-kursa keçirmək, eləcə də tələbələr sırasından xaric etmək üçün rektora təqdimatlar verir;
- qrup nümayəndələrinin işinə rəhbərlik edir;
- təhsil proqramlarının və tədris planlarının dövlət təhsil standartları tələblərinə uyğun olaraq həyata keçməsini təmin edir;
- tələbələrin elmi, pedaqoji və istehsalat praktikalarının həyata keçirilməsi üçün şərait yaradır və onu nəzarətdə saxlayır;
-fakültə üzrə dərs cədvəllərinin tərtibinə rəhbərlik edir, onun optimal variantlarının təmin olunması üçün məsuliyyət daşıyır və həyata keçməsinə nəzarət edir;
- tələbələrin müstəqil işlərinə nəzarəti təşkil edir və onların elmi fəaliyyətləri üçün şərait yaranmasını təmin edir;
- tələbələrin buraxılış-yekun dövlət imtahanlarında, buraxılış işlərinin və magistr dissertasiyalarının müdafiəsinə buraxılmasına icazə verir;
- fakültədə çalışan professor-müəllim heyətinin ixtisas artırması və yenidən hazırlanması işinin həyata keçirilməsinə rəhbərlik edir;
- fakültədə təhsil alan doktorant və dissertantların təhsilinin lazımi səviyyədə təşkil olunmasını təmin edir, onların attestasiyalarını keçirir;
- fakültənin profilinə uyğun dərsliklərin, dərs vəsaitlərinin, fənn proqramlarının, təhsil normalarının, tədris planlarının, metodiki göstərişlərin hazırlanmasına təşəbbüs göstərir və bu işə ümumi rəhbərlik edir;
- kafedralararası müşavirələrin, elmi-metodiki müzakirələrin və konfransların keçirilməsini təşkil edir və onlara rəhbərlik edir;
- ümumfakültə elmi-metodiki və elmi seminarlarının təşkil olunmasını təmin edir;
- fakültədə hazırlanan ixtisaslar üzrə peşə yönümü işinin aparılmasını təşkil edir və onun lazımi səviyyədə aparılmasına məsuliyyət daşıyır;
- ali təhsilin hər iki pilləsi, eləcə də doktorantura və dissertantura üzrə fakültədə hazırlanması mümkün və zəruri olan ixtisasları, ixtisaslaşmaları müəyyənləşdirir, onlar üzrə illik və perspektiv qəbul planları üzrə universitetin rektoruna təkliflər təqdim edir;
- fakültə elmi şurasına rəhbərlik edir;
- fakültənin həyatı ilə bağlı olan bütün tədbirlərdə, komissiyalarda, yığıncaq və şuralarda fakültəni təmsil edir;
- dekan müavinlərini təyin etmək üçün təqdimat verir;

- fakültədə olan bütün tədris-köməkçi heyətin işinə nəzarət edir, onların işə qəbulu və işdən azad olunması, eləcə də
rəğbətləndirilməsi və cəzalandırılması üçün rektora təqdimat verir;
- ayrı-ayrı kafedraların tədris yükünün düzgünlüyünü yoxlayıb, onlara rəy verir;
- təhsilalanların məişəti və təhsili ilə bağlı ərizə və müraciətlərlə bağlı iş görür.
- tələbələrə təqaüd verilməsi üçün təqaüd komissiyasının işində iştirak edir, fakültənin işçi qrupuna rəhbərlik edir;
- dekanlığın əməkdaşlarının iş cədvəlini təsdiq edir.
- fakültənin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün iş görür.
- fakültənin məzunları və onların işlədikləri idarə və müəssisələri ilə əlaqələri koordinasiya edir.
- kafedra müdirləri və fakültənin əməkdaşlarına fakültənin fəaliyyəti ilə bağlı əmr, sərəncam və digər sənədlərlə vaxtında məlumatlandırır və fakültə əməkdaşları tərəfindən icrasına nəzarət edir.
- Fakültənin tədris, elmi və digər binalarında əməyin təhlükəsizliyini təmin etmək, fakültə işçilərinin istehsalat xəsarətlərinin və peşə xəstəliklərinin tamamilə aradan qaldırılması üçün fakültədə əməyin mühafizəsi, sanitariya və yanğın təhlükəsizliyinə nəzarət edir və bütün zəruri tədbirləri həyata keçirir.

Dekan fakültə daxilində tələbələrin bir ixtisasdan digərinə köçürülməsi ilə bağlı prosesdə qərarın qəbul olunmasında( səsvermə yolu ilə) iştirak edir.

**Dekan müavini**

Fakültə yaradılarkən, ştatda fakültə dekanının müavini vəzifəsi nəzərdə tutulur. Fakültədə təhsil alan tələbələrin sayı 800 nəfərə çatdıqda ikinci və sonrakı hər 500 nəfər tələbə üçün əlavə bir dekan müavini ştatı əlavə olunur.

Dekan müavini fakültənin profilinə uyğun baza təhsilli, ən azı 3 il elmi-pedaqoji təcrübəsi olan, mütəxəssislər arasından fakültə dekanının təqdimatı əsasında rektor tərəfindən təyin və azad edilir və onunla qanunvericilikdə nəzərdə tutulmuş qaydada əmək müqaviləsi bağlanır .Dekan müavinin vəzifə borcları rektor tərəfindən təsdiq edilmiş vəzifə təlimatı ilə müəyyən edilir

Dekan müavininin funksiyaları kurasiyasında olan təhsil kursları və ya kurasiyasında olan məsələlər üzrə müəyyən edilir.

Dekan müavini birbaşa fakültənin dekanına tabedir.

Dekan müavini olmadığı müddətdə (xəstəlik, məzuniyyət, ezamiyyət və s.) onun funksiyalarını dekanın yazılı sərəncamına əsasən digər dekan müavini tərəfindən yerinə yetirilir.

Fakültədə çalışan akademik məsləhətçilər tələbələrin akademik maraqlarını qoruyur və müdafiə edir. Tədris prosesinin təşkili ilə bağlı zəruri məlumatları və sənədləri tələbələrə təqdim edir. Tələbələrin fərdi tədris və iş planlarının tərtibi üçün onlara qrup halında və ya fərdi məsləhətlər verir. İl ərzində müntəzəm olaraq akademik məsləhətləşmələr aparır. Tələbələrin fərdi tədris planlarının qəbulunu təşkil edir və ixtisaslar (proqramlar) üzrə iş planlarının tərtib edilməsində iştirak edir. Tələbələrə fərdi tədris planında dəyişiklik aparmağa yardım göstərir.

Fakültə-Tələbə Münasibətləri:

Hörmətli Mühit təmin etmək üçün fakültə professor-müəllim heyəti ilə tələbələr arasında qarşılıqlı hörmət, peşəkarlıq və effektiv ünsiyyəti təşviq edən hörmətli və inklüziv mühit yaradır.

Şikayətlərin həlli üçün fakültə tələbələrin şikayətlərini həll etmək məqsədi ilə ədalətli və şəffaf mexanizm yaradır, tələbələrin narahatlıqlarını ifadə etmələri və həllini axtarmaq üçün platformanı təmin edir.

Maraqlı Tərəflərin İştirakı təmin məqsədi ilə fakültə təhsil proqramlarını sosial ehtiyaclara uyğunlaşdırmaq və tibb təhsilinin aktuallığını artırmaq üçün tələbələr, müəllimlər, məzunlar, səhiyyə işçiləri və icma daxil olmaqla maraqlı tərəflərlə fəal şəkildə əlaqə saxlayır və rəylər toplayır.

1. ****Tələbə həyatı****

2024-cü ilin əvvəllərinə olan məlumata görə, fakültədə 2187 tələbə təhsil alır.

**- Tələbə təşkilatları**

Fakültənin tərkibində aşağıdakı ictimai təşkilatlar mövcuddur:
1.Tələbə Həmkarlar İttifaqı Komitəsi
2.Tələbə Gənclər Təşkilatı
3.Tələbə Elmi Cəmiyyəti
4.Tələbə dekanı

**-Tibbi konfranslar**

Tədrisin ilk günlərindən dekanlıq TEC-in işini nəzarət altına almış, tələbələri elmi işə cəlb etmək üçün müəyyən tədbirlər həyata keçirmiş və çalışmışdır ki, tələbələr başa düşsünlər ki, elmi-tədqiqat işləri onların gələcək inkişafında mühüm rol oynayacaqdır. Kafedralarımızın professor-müəllim heyətinin də TEC-in işində böyük rolu olmuşdur. Xüsusilə, Normal fiziologiya, Psixiatriya, II Daxili xəstəlikləri, Ailə təbabəti, II Mamalıq və ginekologiya, II Uşaq xəstəlikləri, Sua diaqnostikası və terapiyası, Patoloji fiziologiya, Pataloji anatomiya kafedraları bu işdə daha fəal olmuş, həmin kafedralarda TEC-in işi yüksək səviyyədə qurulmuş, daha çox tələbə elmi işə cəlb edilmiş, aktual və maraqlı elmi işlər yerinə yetirilmişdir.

Hazırda fakültəmizdə TEC xətti ilə 100-dən çox tələbə elmi dərnəklərdə çalışırlar. 2022/2023-cü tədris ilində Ümummilli liderimiz Heydər Əliyevin 100 illiyinə həsr olunmuş elmi konfransımız 5-6 aprel ayında keçirilmişdir. Bu zaman fakültə TEC-in konfransına 89 elmi iş təqdim olunmuş və 59-dan cox məruzə dinlənilmişdir. Onlardan 6 məruzə IV Beynəlxalq Tibb Konqresinə təqdim edilmişdir. Həmçinin 2022-ci ildə tələbələrimizdən 220A 10B qrup tələbələri Fəridə Ağayarlı və Səbinə

Həsənzadə Tacikistanın Düşənbə şəhərində keçirilən Beynəlxalq konfransda çıxış edərək II yerə layiq görülmüşlər və sertifikatla təltif edilmişlər.

Bundan əlavə Həmin tələbələr 2022-ci ilin noyabr ayında Ukraynada keçirilən BİMCO2023 adlı beynəlxalq konfransda onlayn formada çıxış edib, sertifikatlarla təltif olunub və məqalələri həmin dərgidə çap olunmuşdur.

Bundan əlavə Həmin tələbələr 2023-ci ilin yanvar ayında Rusiyanın Stavrapol şəhərində keçirilən "Elm həftəsi-2023" adlı beynəlxalq konfransda onlayn formada çıxış edib, sertifikatlarla təltif olunub və məqalələri həmin dərgidə çap olunmuşdur.

Tələbələrin elmi araşdırmalara marağını daha da artırmaq məqsədilə fakültənin tələbələri o cümlədən də, TEC-in idarə heyətinin üzvləri Universitet tərəfindən keçirilən Beynəlxalq səviyyəli konfranslara dəvət edilir, təşkilatı işlərə cəlb olunurlar. Hazırda fakültənin TEC-nə rəhbərliyi Normal fiziologiya kafedrasının dosenti Aqil Əliyev həyata keçirir. TEC-in idarə heyətinin üzvlərinin sayı bütün kursları əhatə etməklə 25 nəfərdən ibarətdir.

**-Sağlamlıq resursları**

Azərbaycan Tibb Universitetinin 25 iyun 2023-cü ildə keçirilmiş Böyük Elmi Şurasının qərarına əsasən, universitetin nəzdində psixoloji mərkəz yaradılıb.

Mərkəzin rəhbəri, klinik psixoloq və psixoterapevt Günel Abasovanın sözlərinə görə, mərkəzdə professor-müəllim və işçi heyətinə, o cümlədən tələbələrə psixoloji yardım göstərilir. Şəxsi həyatında, sosial mühitlə bağlı, həmçinin adaptasiya olunmaqda çətinliklər yaşayan həkim, müəllim və ya inzibati-texniki işçilər, eləcə də tədrisdə problemləri olan tələbələr bu mərkəzə müraciət edə bilərlər.

Mərkəz ATU-nun beş klinik psixoloqunun fəaliyyətini əhatə edir. Belə ki, Tədris Terapevtik Klinikada 3, Lökbatan poliklinikasında 1 və Yasamal rayonunda yerləşən 16 saylı poliklinikada 1 nəfər olmaqla, mütəxəssislər ehtiyacı olanları qəbul edir. Bununla əməkdaşlara və tələbələrə yaxın yerləşmək məsələsi nəzərə alınıb.

Konsultasiyalar 3 dildə - Azərbaycan, rus və ingilis dillərində aparıldığından, xarici tələbələr də müraciət edə bilər.

7.** İxtisaslaşma Proqramları**

-**Rezidentura və Magistratura Proqramları**

II MPF-də 6 illik ali baza tibb təhsilini bitirdikdən sonra "Həkim" ali peşə dərəcəsinə yiyələnirlər. Bundan sonra isə dar sahədə ixtisasa yiyələnmək istəyənlər müvafiq ixtisasa uyğun olaraq 2-5 illik rezidentura səviyyəsi üzrə təhsil alma hüququna malikdirlər.

Müalicə işi üzrə rezidentura səviyyəsinə uyğun ixtisaslar bu şəkildə müvafiq olaraq müəyyənləşdirilmişdir:

| Əsas(baza ali) tibb təhsili üzrə istiqamətlər (fakültələr) | Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar | Rezidenturaya qəbul üçün imtahan fənləri | |
|---|---|---|---|
| | | Baza fənləri | İxtisas fənləri |
| 1 | 2 | 3 | 4 |
| ***I.Müalicə işi, pediatriya*** | 060901-Anesteziologiya-reanimatologiya<br>060902-Ümumi cərrahiyyə<br>060903-Neyrocərrahiyyə<br>060904-Plastik cərrahiyyə<br>060905-Ürək-damar cərrahiyyəsi<br>060906-Uşaq cərrahiyyəsi<br>060907-Otorinolarinqologiya<br>060908-Travmatologiya və ortopediya<br>060909-Onkologiya<br>060910-Urologiya<br>060911-Oftalmologiya<br>060912-Mamalıq-ginekologiya<br>060913-Psixiatriya<br>060914-Nevrologiya<br>060915-Daxili xəstəliklər<br>060916-Kardiologiya<br>060917-Nefrologiya<br>060918-Qastroenterologiya<br>060919-Hematologiya<br>060920-Dermatovenerologiya<br>060922-Allerqologiya və İmmunologiya<br>060923-Yoluxucu xəstəliklər<br>060924-Revmatologiya<br>060925-Endokrinologiya<br>060926-Narkologiya<br>060927-Fizioterapiya və tibbi bərpa<br>060928-Ftiziatriya<br>060929-Patoloji anatomiya və məhkəmə tibbi ekspertiza<br>060930-Pediatriya<br>060931-Şüa-terapiyası<br>060932-Şüa diaqnostikası<br>060935-Sosial-gigiyena və səhiyyənin təşkili<br>060937-Tibbi mikrobiologiya<br>060939-Tibbi genetika<br>060941-Ailə təbabəti<br>060942-Nüvə təbabəti<br>060949-Uşaq və yeniyetmə psixiatriyası<br>060950-Neonotologiya<br>060951-Uşaq endokrinologiyası<br>060952-Uşaq kardiologiyası<br>060953-Uşaq nefrologiyası<br>060954-Uşaq nevrologiyası<br>060955-Uşaq qastroenterologiyası<br>060956-Uşaq urologiyası | İnsan anatomiyası<br>Histologiya<br>İnsan fiziologiyası<br>Patologiya(patoloji anatomiya, patoloji fiziologiya)<br>Mikrobiologiya<br>Farmokologiya<br>Biokimya | Daxili xəstəliklər (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya,yoluxucu xəstəliklər, psixiatriya)<br><br>Cərrahlıq (ümumi cərrahlıq,cərrahi xəstəliklər, uşaq cərrahlığı)<br><br>Mamalıq və ginekologiya<br><br>Uşaq xəstəlikləri (uşaq xəstəliklərinin propedevtikası, Neonatologiya) |

| | | | |
|---|---|---|---|
| | 060957-Uşaq yoluxucu xəstəlikləri<br>060958-Üşaq ürək-damar cərrahiyyəsi | | |

Rezidenturaya yalnız ali baza tibb təhsili olanlar qəbul oluna bilərlər. Azərbaycan vətəndaşları üçün dövlət planına müvafiq olaraq təhsil ödənişsiz və ödənişli əsaslarla, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün isə müvafiq qanunvericilik qaydalarında nəzərdə tutulubsa ödənişsiz, digər halda yalnız ödənişli əsasla həyata keçirilir. Qəbul rezidentura səviyyəsi üzrə ixtisas seçimi cədvəlinə müvafiq olaraq, yəni bitirdiyi fakultəyə müvafiq ixtisaslar üzrə həyata keçirilir.
Rezidentura təhsilinə rəhbərlik universitetin müvafiq şöbəsi tərəfindən həyata keçirilir, rezidentlərin fərdi iş planı təsdiq olunur, illik hesabatları dillənilərək və illik hesabat məqbul sayıldıqda rezident attestasiyadan keçmiş hesab olunur.

## Magistratura proqramları haqqında ümumi məlumat

Müalicə işini bitirən tələbələr üçün magistratura təhsili 4 proqram, 5 ixtisas üzrə aparılır və iki il davam edir, proqrama dissertasiya işi daxildir.

**Magistr proqramları və ixtisasları:**

a) **Psixologiya** ixtisası üzrə Təhsil Proqramı - "Klinik (tibbi) psixologiya"
b) **Əczaçılıq** ixtisası üzrə Təhsil Proqramı - "Əczaçılığın təşkili"
c) **Menecment** ixtisası üzrə Təhsil Proqramı - "Menecment (səhiyyə sahəsi üzrə)"
d) **Biologiya** ixtisası üzrə Təhsil Proqramı - "Mikrobiologiya" və "Biokimya"

Magistratura səviyyəsinin **060209 – Psixologiya** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.
Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060209 – Psixologiya** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.
Təhsil Proqramının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən elmi-ixtisas dərəcəsi:

| **İxtisasın şifri və adı** | **Verilən elmi-ixtisas dərəcəsi** | **Əyani forma üzrə təhsil müddəti** | **Kreditlərin sayı** |
|---|---|---|---|
| **060209 – Psixologiya**<br>**İxtisaslaşmalar:**<br>*- Klinik psixologiya* | Magistr | 2 il (qiyabi forma üzrə təhsil müddəti 6 ay artıqdır) | 120 |

Magistratura səviyyəsinin **060801 – Əczaçılıq** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi

Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.
Tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən ali təhsil müəssisələri **060801 – Əczaçılıq** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060801 – Əczaçılıq**<br>**İxtisaslaşmalar:**<br>- *Əczaçılığın təşkili* | Magistr | 2 il (qiyabi forma üzrə təhsil müddəti 6 ay artıqdır) | 120 |

Magistratura səviyyəsinin **060407 – Menecment** ixtisası üzrə Təhsii Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmu-nu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifa-tı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.
**060407 – Menecment** ixtisası üzrə magistr hazırlığını bu Təhsil Proqramı ilə həyata keçirir.

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlə rin sayı |
|---|---|---|---|
| **060407 - Menecment**<br>**Ixtisaslaşmalar:**<br>- *Menecment (səhiyyə sahəsi üzrə)* | **Magistr** | **2 il** | **120** |

4) Magistratura səviyyəsinin **060505 – Biologiya** ixtisası üzrə Təhsil Proqramı «Təhsil haqqında» Azərbaycan Respublikası Qanununa, Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq olunmuş «Ali təhsil pilləsinin dövlət standartı və proqramı", «Magistratura təhsilinin məzmunu, təşkili və «magistr» dərəcələrinin verilməsi Qaydaları»nın tələblərinə, «Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı»na və digər qanunvericilik aktlarına uyğun hazırlanmışdır.

| İxtisasın şifri və adı | Verilən elmi-ixtisas dərəcəsi | Əyani forma üzrə təhsil müddəti | Kreditlərin sayı |
|---|---|---|---|
| **060505 – Biologiya**<br>**İxtisaslaşmalar:**<br>- *Mikrobiologiya*<br>- *Biokimya* | Magistr | 2 il (qiyabi forma üzrə təhsil müddəti 6 ay artıqdır) | 120 |

-**Fəlsəfə və Elmlər Doktoru imkanları** – Doktoranturada yüksəkixtisaslı elmi kadrların məqsədli hazırlığı ali təhsil müəssisələri, elmi müəssisə, təşkilatların və digər təşkilatların təqdimatı ilə onların tabe olduqları müvafiq qurumların sifarişləri əsasında həyata keçirilir.

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya li təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan (tibbi təhsildə həkim-mütəxəssis) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar. Doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

1. ərizə (doktoranturanın fəaliyyət göstərdiyi müəssisənin və yaxud təşkilatın rəhbərinin adına)
2. kadrların şəxsi-qeydiyyat vərəqi
3. tərcümeyi hal
4. 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə)
5. İş yerindən xasiyyətnamə
6. əmək kitabçasından çıxarış
7. çap olunmuş elmi işlərin siyahısı
8. Fəlsəfə doktoru və ya Elmlər namizədi elmi dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti.

“Fəlsəfə doktoru” və “Elmlər doktoru” elmi dərəcələri üzrə doktoranturada təhsil alan şəxslərin hüquq və vəzifələri doktoranturada yüksəkixtisaslı elmi kadrların məqsədli hazırlığına da şamil edilir. Doktoranturada fərdi iş planını yerinə yetirən və elmi tədqiqat işini bitirən şəxslər “Fəlsəfə doktoru” elmi dərəcəsi almaq üçün dissertasiya işinin müdafiəsinə buraxılırlar. Əyani təhsil alan doktorantlar elmi rəhbərin razılığı ilə təhsil aldıqları ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilatda 0,5 ştat vahidi ilə müvafiq elmi və ya elmi-pedaqoji işlərə cəlb oluna bilərlər.

Müalicə işi üzrə təhsil almış şəxslər aşağıdakı ixtisaslar üzrə Doktoranturaya qəbul oluna bilər:

1. Epidemiologiya
2. Məhkəmə təbabəti
3. Daxili xəstəliklər
4. Psixiatriya
5. Cərrahlıq
6. Ginekologiya
7. Endokrinologiya
8. LOR
9. Kardiologiya
10. Göz xəstəlikləri
11. Pediatriya
12. Yoluxucu xəstəliklər
13. Dermatovenerologiya
14. Sinir xəstəlikləri
15. Onkologiya
16. Şüa diaqnostikası və şüa terapiyası
17. Travmatologiya və ortopediya
18. Ftiziatriya
19. Neyrocərrahiyyə
20. Uşaq cərrahlığı

21. Anesteziologiya-reanimatologiya
22. Hematologiya
23. Revmatologiya
24. Urologiya
25. Pulmanologiya
26. Ürək-damar cərrahlığı
27. Narkologiya
28. Qastroenterologiya
29. Nevrologiya
30. İnsan anatomiyası
31. Patoloji anatomiya
32. Patoloji fiziologiya
33. Allerqologiya və immunologiya
34. İdman təbabəti və fizioterapiya

**8.** Davamlı Tibb Təhsili****

**-Təkminləşmə Kursları**

Pedaqoji peşakarlığın inkişafı təliminin (PPİT) məqsədi tibb tədrisi fəaliyyətində iştirak edən müəllimlərin tədris bacarıqlarını təkmilləşdirməkdir. Bu təlim tibb və sağlamlıq təhsili üzrə professor-müəllim heyətinin və ya müəssisədə çalışan klinik təhsilverənlərin inkişafının təmin edərək tədris proqramlarını və proseslərini gücləndirməklə tibb təhsilinin keyfiyyətini artırmaq məqsədi daşıyır. Bu təlim proqramı tibb və sağlamlıq elmləri sahəsində tədris yanaşmalarını (tələbə mərkəzli, səriştə əsaslı, cəmiyyətə yönəlmiş, xəstə təhlükəsizliyinə yönəlmiş və s.) və onların məzmununu yeniləmək məqsədi daşıyır.

Təlim nəticəsində müəllimlər dünyada tibb və sağlamlıq təhsilinin əhatə dairəsinin izahı, öyrənmə nəzəriyyələrindən istifadə etməklə effektiv tədrisin metodları, tibb təhsilverənin səriştələr çərçivəsi, təhsil ehtiyaclarına uyğun öyrənmə hədəfləri, müəyyən edilmiş öyrənmə hədəfləri üçün uyğun olan tədris və qiymətləndirmə metodunun seçilməsi, böyük və kiçik qruplarda tədris üsulları və texnikalarından səmərəli istifadə edilməsi, böyük/kiçik qrup//klinikada tədrisi və bacarıq təlimlərini planlaşdırmaq və həyata keçirmək kimi mövzularda bilik və bacarıqlara malik olurlar.

Təlim ATU-nun Tibb və sağlamlıq elmləri təhsili kafedrasında həyata keçirilir. kafedranın əməkdaşları bu sahədə təcrübələrdə olaraq bilik və bacarıqlarını artırmışdırlar.

**9.**Karyerada İstiqamətləndirmə****

**- İşə Yerləşmə Yardım**

**-Məzunların Uğur Hekayələri**

Azərbaycan Tibb Universitetinin rəsmi səhifəsində Məzunlarla daima əlaqədə olmaq üçün Tədris Departamenti – Məzunlarla iş şöbəsi bölməsində elektron ünvan və iş nömrəsi qeyd edilmişdir. Müxtəlif illərdə Məzun olan və bizə indi müraciət edən bütün məzunlara xaricdə diplomlarının taninması, təhsillərini davam etdirmək və ya əmək fəaliyyətinə başlamaları üçün köməklik edilmişdir. Tövsiyyə məktublarının hazırlanması

digər tələb olunan sorğuların cavablandırılması istiqamətində mütamadi, gündəlik olaraq işlər görülür.

Məzunlarla iş şöbəsi olaraq, beynəlxalq miqyasda tanınmış şirkətlərlə (DATA FLOW GROUP, WES KANADA – ABŞ, ECE.ORG, FSMB STATE MEDİCAL BOARDS - verification, ENİC) Türkiyə, Almaniya, Qazaxıstan, Belorusiya, Rusiya dövlətlərinin Səhiyyə Nazirlikləri ilə əlaqələr yaradılmışdır və Məzunların müraciəti ilə bağlı olaraq qarşılıqlı fəaliyyət göstəririk.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyindən, ölkəmizdə fəaliyyət göstərən Dövlət və özəl xəstəxanalardan gələn gündəlik sorğular operativ şəkildə cavablandırılır.

Müalicə işi ixtisası üzrə Məzun olanların hal-hazırda əldə etdikləri nailiyyətlər qürurvericidir.

**-Peşəkar İnkişaf**

**10.**FAQs****

**-Tez-tez verilən suallar**

**Sual 1:** Tələbə fənnin kredit borcunu hansı hallarda 25 %-lə ödəyə bilər?

1. Normativ təhsil müddəti ərzində fənnin tədris olunduğu semestrlərdə
2. Fənnin imtahanından «F» (qeyri kafi) qiymət aldıqda
3. Fənnin imtahanında üzrsüz səbəbdən iştirak etmədikdə.

25 %- in hesablama qaydası:

1 kreditin qiyməti fənnin kreditinə vurulub , 4-ə bölünür.

Məsələn

Tələbə 5 kreditlik fənnin borcunu ödəmək üçün

75*5=375 AZN (ödənişli əsaslarla təhsil alanlar)

375 AZN ------100%

X AZN ----------25 % və ya 375/4=93.75 AZN

X=93.75 AZN

**Sual 2:** Tələbə hansı şərtlər əsasında Tələbə Təhsil Krediti (TTK) almaq hüququ qazanır?

**a) Sosial TTK üzrə:**

Aşağıdakı şərtlərdən biri ödənildikdə tələbə sosial TTK almaq hüququnu qazanır.

➢ Tələbə ünvanlı dövlət sosial yardım alan ailənin üzvü olduqda;

➢ orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə (3-cü qrup) əlilliyi olduqda;

➢ ailə başçısını itirməyə görə əmək pensiyası alanlar;

➢ Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda döyüş əməliyyatlarında iştirak edərək “Müharibə veteranı” adı almış şəxslər;

➢ Hər iki valideyni (tək valideyni olduqda isə həmin şəxs) aşağıdakı kateqoriyaların hər hansı birinə aid olduqda:

✓ orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə (1 və ya 2-ci qrup) əlilliyi olan şəxslər;

✓ işsiz kimi qeydiyyatda olanlar;

✓ yaşa görə əmək pensiyaçıları;

✓ yaşa görə sosial müavinət alanlar.

**b) Standart TTK üzrə**:

Tələbə sosial TTK üçün uyğun olmadıqda standart TTK-ya uyğunluğu yoxlanılır. Aşağıdakı şərtlər ödənildikdə tələbə standart TTK almaq hüququnu qazanır.

➢ Birinci tədris ilinin ilk semestrində (yarımilində) oxuyan tələbələr üçün:

• tələbə qəbulu imtahanında toplanan ümumi balın Fondun Himayəçilik Şurası tərəfindən müəyyən edilən minimal həddindən yuxarı olduqda:

✓ bakalavriat səviyyəsi üçün 250-700 bal aralığı;

✓ magistratura səviyyəsi üçün 50-100 bal aralığı;

✓ subbakalavriat səviyyəsi üçün 110-300 bal aralığı.

• illik təhsil haqqı xərcinin ən azı 20 faizini ödədikdə.

➢ Digər semestrlər (yarımillər) üçün:

• tələbənin ÜOMG-si/aralıq qiymətləndirmə balı 71 bal və yuxarı olduqda;

• illik təhsil haqqı xərcinin ən azı 20 faizini ödədikdə

Tələbə təhsil kreditinə müraciət etmək istiyən tələbələr bu link **https://www.e-ttkf.edu.az/Content/Documents/InstructionFile.pdf** vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.

***Universitet həyatınızda hər birinizə Uğurlar arzulayıram.***